**AYŞƏN İSMAYILLI***

# AĞDAM RAYONU ƏRAZİSİNDƏ ETNONİMLƏRDƏN ƏMƏLƏ GƏLƏN MİKROTOPONİMLƏR

**XÜLASƏ**

Yer-yurd adlarının meydana gəlməsi tarixi və siyasi səbəblərdən baş verir. Yaşı min illərə dayanan el-oba adlarımız müxtəlif zaman kəsiyində bəzi proseslərin nəticəsi olaraq ya çox sürətlə, ya da ilk baxışda görünməyən dəyişikliyə uğramışdır. Dilimizdə mövcud olan mikrotoponimlər müxtəlif söz qruplarının iştirakı ilə yaranır. Tayfa, xalq, qəbilə, nəsil, tirə adları əsasında əmələ gələn mikrotoponimlərə etnotoponimlər deyilir. Etnonimlərdən əmələ gələn mikrotoponimlər xalqımızın təşəkkül tarixində iştirak etmiş xalq, qəbilə, nəsil, tirə, qrup adlarının aşkarlanmasında və həmin prosesin nə vaxt baş verdiyinin müəyyən olunmasında mühüm rola malikdir. Qarabağ bölgəsinin (Ağdam rayonunun) mikrotoponimləri torpaqlarımız işğaldan azad olunduqdan sonra daha da ətraflı tədqiq olunmağa başlanmışdır. Ərazinin mikrotoponimləri xalqımızın qədim zamanlardan müasir dövrə qədər keçdiyi inkişaf yolu, peşəsi, sənəti, məşğuliyyəti ilə əlaqədar olaraq maraqlı faktların üzə çıxarılmasına da yardımçı olur. Tayfa adlarını izləməklə bir çox vacib tarixi, etnosiyasi prosesləri öyrənmək mümkündür. Ancaq etnonimlərdən əmələ gələn mikrotoponimlərin etimologiyası haqqında hələ ki az iş görülmüşdür.

**Açar sözlər:** *mikrotoponim, etnotoponim, tayfa, nəsil, xalq*

Toponimik sistemdə mühüm rola malik olan laylardan birini etnonimlərdən əmələ gələn mikrotoponimlər təşkil edir. Etnotoponimlər adını daşıdığı tayfanın məskunlaşdığı ərazini müəyyən etməyə kömək edir. Bu qrupa daxil olan mikrotoponimlər ilkin yaşayış məkanında bir və ya daha çox tayfaya, nəslə, tirəyə məxsus insanların yaşadığı əraziyə öz adlarını verməsi, kənd daxilində birləşməsi nəticəsində əmələ gəlir. Məhz bunun üçün də belə yaranan mikrotoponimlər tayfanın, nəslin, tirənin əksər xüsusiyyətlərini saxlayır.

"Azərbaycan etnotoponimləri toponimik layda mənşəcə ən qədim hesab olunur. Onların mənşəyinin, kökünün müəyyənləşməsi öz mürəkkəbliyi ilə diqqəti cəlb edir. Bu cür toponim haqqında kiçicik qeyri-dəqiq fikir böyük tarixi səhvə aparıb çıxara bilər. Buna görə də onların elmi təhlili olduqca ciddi məsuliyyət və dəqiqlik tələb edir" [Qurbanov: 2019, s.194].

Etnotoponimlər xalqların bir ərazidən digərinə köç etməsi və ya parçalanıb birləşməsi nəticəsində dəyişikliyə məruz qala bilir. "Azərbaycan dilinin onomastikası (oçerklər)" adlı əsərdə deyilir: "Tayfa və nəsil adları vasitəsilə formalaşan kənd adlarını tarixi baxımdan daha qədim hesab etmək lazım gəlir. Belə adları çox vaxt etimoloji cəhətdən təhlil etmək də mümkün olmur və ya buna ehtiyac hiss edilmir. Bununla belə, toponimik tədqiqatlarda, nəsil, tayfa adları ilə bağlı yer adlarının müəyyənləşməsində bir çox hallarda müqayisəyə də ehtiyac duyulur" [İsrafilov və b.: 1987,

* AMEA Nəsimi adına Dilçilik İnsitutu, doktorant, *aysheaxmedova4@gmail.com*

s.108]. Fikrimizcə, bu, xalqların köç etməsi ilə bağlı olaraq yer adlarının dəyişməsinin nəticəsində baş verir. Misallara diqqət yetirək:

**İlxıçı qobusu.** Ağdam rayonunda İlxıçılar kəndində qobu adıdır. *Qobu* - "Müvəqqəti və ya az miqdarda daimi suların yerin səthində əmələ gətirdiyi mənfi relyef forması (dərə). Dibi az meylli-batıq, yamacları qabarıq olur" [Məmmədov və b.: 2003, s.266]. Qobunun belə adlandırılmasına səbəb ərazidə məskən salan tayfanın maldarlıqla məşğul olması olmuşdur. Belə ki tayfanın izinə başqa el-oba adlarında da rast gəlmək mümkündür. Yaşayış yerlərini bir-birindən fərqləndirmək üçün müxtəlif topoformatlardan istifadə olunur. Azərbaycan ərazilərindən Şamaxıda (İlxıçı dağı), Ağsuda (İlxıdərə), Laçında (İlxısu), Ağsu və Xaçmazda (İlxıçı kəndi), Ağdam və Tərtərdə (İlxıçılar kəndi), Sumqayıtda (İlxıdaş dağı), Cavadxanda (İlxıdərə çayı), Laçında (İlxısu bulağı) belə adlara rast gəlmək olur. Bu coğrafi obyektlər həm şahsevən tayfasına aid olan *ilxıçı* adı ilə əlaqədardır, həm də at ilxısı ilə bağlı olaraq yaranmışdır. Respublikamızla yanaşı, digər ərazilərdə, Qərbi Azərbaycanda (İlxıçı qoruğu, İlxıçı yabı), Gürcüstanda da (İlxıdağ, İlxıçı Yusif Qışlağı) belə adlar qeydə alınmışdır. Etnonimdən əmələ gələn mikrotoponim sənət, peşə, məşğuliyyət bildirən söz əsasında yaranmış və etnonim yaratmada belə adlardan istifadə olunmuşdur.

Dastanlarımızda *ilxı* sözünə çox rast gəlirik. "Kitabi-Dədə Qorqud" lüğətində söz belə izah olunur: "*İlqı, İlxıçı.* Oğuz xanın ilqısı gəlüb xəbər gətürdü" ["Kitabi-Dədə Qorqud" dilinin izahlı lüğəti: 1999,s.95]. ***-çı*** şəkilçisi tayfaya aidliyi, mənsubluğu ifadə edir. Beləliklə, deyilən fikirləri ümumiləşdirərək mikrotoponimi "ilxıçı tayfasına aid olan qobu" kimi izah etmək olar.

**Sarıcalı təpə (yaşayış yeri).** Ağdam rayonu ərazisindədir: "Yaşayış məntəqələrinin adları bəhmənlərin bir qolu olan sarıcalıların adı ilə bağlıdır. Sarıcalılar cavanşir və b. tayfalarla birlikdə Qarabağ xanlığının həyatında mühüm rol oynamışlar. XIX əsrin əvvəllərində onlar *dərgahlı, əmiraslanbəyli, çəmənli, incilli, yetim* adlı tirələrə bölünürdü. 1917-ci ildə Şuşa qəzasında *Əmiraslanbəyli Sarıcalısı, İncirli Sarıcalısı, Tərəkəmə Sarıcalısı, Quzanlı Sarıcalısı* adlı yaşayış məntəqələri qeydə alınmışdır" [Məmmədov və b.: 2003, s.175-176]. Saatlıda *Sarıcalar*, Ağdamda, Ağcabədidə, Cəbrayılda, Tərtərdə, Mirbəşirdə *Sarıcalı* adlı kəndlər var. Respublikamızla yanaşı, Sarıcalı Qərbi Azərbaycanda - "İrəvan Quberniyasının İrəvan qəzasında, indiki Zəngibasar (Masis) rayonunda kənd olmuşdur." [Bayramov: 2002, s.254]. Gürcüstan ərazisində də ***Sarıcalı*** adlı kənd vardır.

Qeyd edilən fikirlərdən aydın olur ki, Sarıcalar türk tayfasının adını bildirir. Etnotoponimdir. Sarı sözü elmi ədəbiyyatda müxtəlif mənada izah olunur.

Qara Məşədiyevə görə, bu söz müxtəlif mənalarda işləniir: *sarı* – "tərəf, istiqamət" (evə sarı), *sarı* – rəng, *sarı* – xüsusi şəxs adı... [Məşədiyev: 2007, s.32].

"Kitabi-Dədə Qorqud" dastanında *sarı* sözü həm rəng, həm də təxəllüs kimi işlənmişdir: "*Sarı* – I. Sifət. Sarı: Sarı yılan soqmadan, ağca tonüm qalqar-şişər. *Sarı* II.isim. Təxəllüs. İlək qoca oğlu. Sarı Qalmaş Qazan bəgün evi üzərində şəhid oldı" ["Kitabi-Dədə Qorqud" dilinin izahlı lüğəti: 1999, s.152]. Sarı sözü qoşma kimi, şəxs

adı, Yer kürəsinin və Günəşin simvolik rəngi kimi işlənə bilir. Bizcə, mikrotoponimin tərkibində *sarı* sözü "güclü, mərd tayfa" kimi izah olunur. *-ca* şəkilçisi çoxaltma dərəcəsini bildirir. Bu mikrotoponimi "sarıcalı tayfasının adı ilə bağlı olan təpə" kimi izah etmək olar.

**Qaramandağ -** Ağdam rayonunda olan oronimlərdən biridir. Dağ Qavartu və Xaçın çayları arasındadır. Mikrotoponim eyniadlı tayfanın adını bildirir. E. Əhmədova yazır: "Böyük Səlcuq oğuz türk tayfasının bir qolunun adı *Qaramanlıdır.* Qaraman tayfası haqqında məlumatlar çox müxtəlifdir. Bəzi məlumatlara görə, 2000 çadırdan ibarət bir tayfa kimi Toğrulbəy dövründə əvvəlcə Anadoluya gəlmiş, buradan da başqa yerlərə, o cümlədən də Azərbaycana yayılmışlar. Bəzi müəlliflər bu tayfanın digər adının *Varsaq* olduğunu göstərirlər. XV əsrdə bu tayfa qızılbaşların tərkibinə Qaraman adı ilə daxil olmuşdur. Son araşdırmalar göstərir ki, Salyan rayonunda 29 ailədən ibarət Qaramanlı tayfası yaşayır" [Əhmədova: 2017, s.55].

Aydın Qarabağlı hətta eyniadlı knyazlıqdan bəhs edir: "Bu adda hətta knyazlıq olmuş və adını da bu tayfadan götürmüşdür. *Qaramanlılar* - Qara imanlılar, böyük imanlılar mənasında Türkiyədə Anadolu sultanlığının süqutundan sonra, 147-ci ildə Azərbaycana, o cümlədən tarixi Qarabağa gəlmiş və onun ərazisində məskunlaşmışlar" [Qarabağlı: 2008, s.70]. Azərbaycan ərazisində qədim zamanlardan Qaramanlı tayfasının izlərinə müxtəlif toponimlərdə rast gəlirik. "Qarabağda çoxlu sayda qərar tutan şenliklərdən biri də Qaramanlı kəndləridir. Qaramanlı kəndləri öz adını Qarabağın əski ellərindən olan Qaramanlıdan alıb. Səfəvilər və Osmanlılar dönəmində Qarabağın bir nahiyəsi *Yavlaq Qaramanlı* adlanırdı. Xanlıq dövründə nahiyələr ləğv olundu. Qaramanlı nahiyəsi İyirmidörd mahalının tərkibinə qatıldı" [Çingizoğlu: 2007, s.161].

Respublikamızda hal-hazırda Qaraman tayfasının adı ilə bağlı Yevlaxda (Qaramanlı təpəsi), Laçında (Qaraman bəy təpəsi dağı), Şamaxıda (Qaramanbulaq), Göyçayda (Qaramanarx), Neftçalada (Aşağı Qaramanlı, Yuxarı Qaramanlı), Cəbrayılda (Hacı Qaraman piri) bu tayfanın adı ilə bağlı coğrafi adlara rast gəlirik. Bundan başqa, eyniadlı yaşayış məntəqələri Qazaxıstanda Kustanay vilayəti, Rusiyada Perm vilayəti, Krımda Azov rayonu ərazisində olmuşdur.

Etnonimdən əmələ gələn mikrotoponimin birinci komponenti *Qaraman* tayfa adındandır; ***-lı*** şəkilçisi tayfaya aidliyi, mənsubluğu bildirir. Dağ müsbət relyef formasıdır. "Qaranın rəng, yas, matəm kimi müxtəlif mənaları vardır. Ancaq mikrotoponimin tərkibində *Qaraman* etnonimi "qara" və "man" komponentlərindən ibarət olub, arxaik məna çalarına görə *qara* sözü "qorxmaz", "cəsarətli", "cəsur", *man* isə "adam, insan" deməkdir. Yəni, "qorxmaz, cəsarətli, cəsur adam" [Əhmədova: 2017, s.56].

Beləliklə, Qaramandağ oronimini "Qaraman tayfasının adı ilə bağlı olan dağ" kimi izah etmək olar.

**Alıbəyli kurqanı.** Ağdam rayonunun yaşayış məntəqələrindən birinin adıdır. Üçoğlan kəndi ərazisində yerləşir. "Kurqan Ağdam rayonunun eyniadlı kəndindən

500 m şimal-şərqdə yerləşir, pambıq çardağı kimi istifadə olunmuşdur. Üstü və ətrafı dağıdılıb, hal-hazırda üstündə ev tikilib və həyətyanı sahə kimi istifadə olunur" [Almәmmәdov və b.: 2017, s.59]. *Alıbəyli* mikrotoponimi öz adını eyniadlı kənddən götürmüşdür. Birinci və İkinci Alıbəyli yaşayış məntəqələri ilə yanaşı, Kəlbəcər rayonunda eyniadlı qəsəbələr vardır.

*Alı* sözü uca, yüksək mənasındadır. Etnotoponimin ikinci komponenti dilimizdə həm təkcə, həm də digər titullarla birgə işlənə bilir. Aydın olur ki, Azərbaycan dilinin onomastik sisteminin zənginləşməsində bu leksik vahid fəal rol oynamışdır. Qədim dövrlərdən titul kimi istifadə olunmaqdadır. Deyilən fikirləri ümumiləşdirərək belə nəticəyə gələ bilərik ki, mikrotoponim *Alıbəy* tayfa adına aidlik, mənsubluq bildirən ***–lı*** şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. Bizcə, etnotoponimi "Alıbəy tayfasına mənsub olan yer" mənasında izah etmək olar.

**Şamlıtəpə (yaşayış yeri).** Ağdam rayonu ərazisində olan təpələrdən biri də Şamlıtəpədir: "Yaşayış yeri Ağdam rayonu Səfərli qaçqın qəsəbəsindən 100 m cənubda, qədim çay yatağı yamacında yerləşir. Hündürlüyü 4 m, diametri 200 m-dən çox olan təpənin şimal hissəsi tamamilə dağıdılmışdır. Təpənin səthi isə sovet dövründə burada ferma tikilən zaman dağıdılıb" [Almәmmәdov və b., 2017, s.89]. Aparılan arxeoloji qazıntılar zamanı aşkar olunmuşdur ki, təpənin alt təbəqəsi neolit dövrünün, üst təbəqəsi isə Leylatəpə mədəniyyətinin qalıqlarıdır. Çox güman ki, mikrotoponimin belə adlanması tayfa adı ilə əlaqədardır. Respublikamızın ərazisində müxtəlif türk tayfalarının adlarını özündə əks etdirən yaşayış məkanları vardır. Bu toponimlərdən biri də Şamlıtəpədir. Bunu tarixi faktlar da sübut edir: "Şamlı -Teymurun 1402-ci ildə türk sultanı Bəyazid üzərində qələbəsindən sonra Suriyadan (Şamdan) apardığı bəydili tayfasına mənsub ailələrin adıdır. Həmin ailələri Teymur Səfəvi şeyxi Xacə Əliyə vermiş, o da onları Azərbaycanın cənubunda yerləşdirmişdir. Səfəvilərin hakimiyyət uğrunda mübarizəsində şamlılar da iştirak etmişdilər. Səfəvi şahları bu tayfaya Azərbaycanda ərazilər bağışlamışlar" [Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: II, 2007, s.208]. E. Əhmədova tayfa adı ilə bağlı tarixi mənbələrə istinad edərək yazır ki, "Bu tayfanın *şamlı* adlanması onların əvvəllər mənsub olduqları yerlə əlaqədardır. *Şamlı* VIII əsrdə ərəblərin Suriyadan köçürdükləri ərəb ailələrin ümumi adıdır. *Şamlı* etnonimi ***şam*** və ***-lı*** komponentlərindən ibarət olub, "Şam şəhərindən", "Şamdan olanlar" anlamındadır" [Əhmədova: 2017, s.85]. ***Şamlıtəpə*** mikrotoponimi "şamlı tayfasına aid olan təpə" kimi izah oluna bilər.

**Təkə dərəsi.** Toponimiyada ev heyvanlarının adı ilə əlaqədar mikrotoponimlərə də rast gəlirik. Belə onimlər əsasında əmələ gələn mikrotoponimlərdən biri də Ağdam rayonunda olan *Təkə dərəsidir*. Toponimik vahidi təkələrlə, yəni Qafqaz keçisi ilə, bir sıra tədqiqatçılar isə qızılbaş tayfalarından olan təkəlilərlə əlaqələndirirlər. *Təkə* – (*Təklə*) etnonimi haqqında E.Əhmədovanın yanaşması fərqlidir: "Təklə etnoniminin etimologiyası hələ tam açılmamışdır. Bəzi tədqiqatçılar onu səlcuq oğuzlarının təkəli tayfasının adı ilə bağlayırlar, bəziləri isə Türkmənistandakı "təkə" tayfası ilə əlaqələndirirlər. Bunun da mənası "təkə" – erkək keçi, sürünün qabağında gedən ke-

çi" deməkdir. Görünür, təkə həmin tayfanın totemi olmuşdur" [Əhmədova: 2017, s.89]. E.Əhmədovanın fikrindən aydın olur ki, *təkə* etnonimi zoonim mənşəlidir. Bu isə türk xalqlarının təkəyə tapınması ilə əlaqəlidir. *Təkə (Təklə)* adı Türkiyə, Türkmənistan, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan ərazilərinndə, Qara dənizin şimalında, Volqaboyu ərazilərdə yaşayan türk tayfa ittifaqlarının leksikasında işlənir.

A.Qurbanovun fikrincə, "Azərbaycan ərazisində yaşamış təklə tayfası yerli deyildir. 1540-cı ildə Türkiyə ərazisindən Qazı xan başda olmaqla təklə tayfası İrana gəlmiş və Şah I Təhmasibin tabeliyinə keçmişdir. Şah təkəlilərin bir hissəsini həmişəlik yaşamaq üçün indiki Salyan rayonu ərazisinə köçürmüşdür" [Qurbanov: 2019, s.178]. Təkələr şahsevənlərin tərkibində Azərbaycan ərazisində, xüsusilə Mildə, Qarabağda məskunlaşmışlar və heyvandarlıqla məşğul olmuşlar.

Təkəli – "İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Axta (Razdan) rayonunda kənddir" [Bayramov: 2002, s.270]. Bu adda etnotoponimlər Gürcüstan ərazisində Pətək nahiyəsində (Təkəqayası, Təkəkəndi, Güney nahiyəsində Təkə məzrəsi), Borçalıda (Təkəlik, Təklə, Təklə düzü) qeydə alınmışdır; Respublikamızın ərazisində Kəlbəcərdə (Təkəqaya kəndi), Gədəbəydə, Tovuzda (Təkəqaya), Xanlar və Tovuzda (Təkəli dağı), Kəlbəcərin Başlıbel kəndində (Təkəölən təpə) qeydə alınmışdır. Çox güman ki, *təkə* etnotoponimi heyvandarlıqla məşğul olan təkə tayfasının sitayiş etdiyi qaya keçisi ilə bağlı olaraq yaranmışdır. *Dərə* – "Relyefin uzunsov, başlanğıcından qurtaracağına doğru meyilli, mənfi relyef formasına deyilir. Dərə başlıca olaraq axar suların eroziya fəaliyyəti nəticəsində əmələ gəlir, digər denudasiya prosesləri ikinci dərəcəli iş görür" [Məmmədov və b.: 2003, s.101]. Fikrimizcə, mikrotoponimi "təkələrə məxsus olan dərə" kimi izah etmək olar.

**Çullu təpə (yaşayış yeri).** Ağdam rayonunda yaşayış yerlərindən birinin adıdır. Çullu yaşayış yeri eyniadlı kənddən 500 m cənub-şərqdə, Qəbiristanlıqtəpədən (Çullu) 350 m cənub-qərbdə yerləşir. Kiçik təpədən ibarət olan yaşayış yerindən bostan kimi istifadə olunur. Təpə pambıq plantasiyalarının genişləndirilməsi məqsədilə dağıdılmışdır. Hal-hazırda diametri təxminən 45 m, hündürlüyü 1 m-ə yaxındır" [Alməmmədov və b.: 2017, s.77]. Mikrotoponimin birinci komponenti əvvəl Çollu şəklində idi və eyniadlı tayfa adı ilə əlaqədar olaraq yaranmışdır. Tayfa haqqında E. Əhmədova yazır: "Qədim türkmənşəli çol tayfasının adını əks etdirir. Cənubi Azərbaycanda da *Çullu* adlı kəndlər vardır. Çol tayfası II əsrdə hunların tərkibində Qafqazda məskunlaşmış və buradan da Azərbaycanın müxtəlif yerlərinə səpələnmişlər. Cəbrayıl rayonundakı *Çollu* kənd adı ilə mənşəcə eynidir" [Əhmədova: 2017, s.24]. Etnonim mənbələrdə *çol-çul*-sol şəklində qeyd olunmuşdur. Həmçinin qədim dövrlərdə Çol vilayəti və Dərbənd yaxınlığında Çol-Sul şəhəri mövcud olmuşdur. Bəzi mənbələrdəki məlumata əsasən, oğuz-türk boylarından hesab olunan çollar boyəhmədli qoluna mənsub olan bir neçə ailə ilə birlikdə Naxçıvan xanlığına gəlmişlər.

Qara Məşədiyev tayfa adını türk mənşəli hesab edir və fərqli aspektdən yanaşır: "... çuvaş dilində bunun mənası "daş, qaya, dərə" kimi verilir ki, bu da həmin oykonimin coğrafi landşaftına uyğundur" [Məşədiyev: 2007, s.85].

Respublikamızın ərazisində Abşeronda (Çullu təpə), Cəbrayılda (Çullu kəndi, Çullu dağı, Çullu quzey, Çullu güney), Lerikdə (Çullu yamac, Çullu yarğan), Qubadlıda (Çullu dərə), Ağdamda (Çullu kəndi) qeydə alınmışdır. Deyilən fikirləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, mikrotoponim tayfa adını bildirir. Ona görə də toponimik vahidi "çullu tayfasına aid olan yaşayış yeri" kimi izah etmək olar.

Ağdam rayonu ərazisində etnonimlərdən əmələ gələn mikrotoponimlərin araşdırılması göstərir ki, xalqımızın etnogenezisində müxtəlif tayfaların mühüm rolu olmuşdur. Onomastik sistemin xüsusi layını təşkil edən etnonimlər dilimizin qədim zamanlardan müasir dövrə qədərki inkişaf prosesini öyrənmək üçün geniş material verir.

Etnonimlərdən əmələ gələn mikrotoponimlər dil tarixi ilə əlaqədar qiymətli faktlar verir, bununla yanaşı, oradakı xalqların tarixən məskunlaşdığı əraziləri müəyyən etməyə, ictimai-siyasi, sosial-iqtisadi hadisə və prosesləri araşdırmağa, tarixi faktları üzə çıxarmağa yardımçı olur. Bu mikrotoponimlərdən *İlxıçı qobusu, Qazançı* yaşayış yeri sənət, peşə, məşğuliyyət bildirən sözlər əsasında yaranmışdır. Etnonimik vahidlər xalqımızın keçmişinə aid dəqiq və əhatəli məlumatlar verir. Onun üçün də Ağdam rayonu ərazisində olan *Kəngərli dağı, İlxıçı qobusu, Sarıcalı təpə, Alıbəyli kurqanı, Qaramandağ, Təkə dərəsi, Qaradağlı kurqanları, Şamlıtəpə, Çullu təpə* yaşayış yeri və başqa mikrotoponimləri tədqiqata cəlb etmək ən aktual məsələlərdəndir. Haqqında məlumat verdiyimiz toponimik vahidlərlə əlaqədar linqvistik aspektdən müəyyən qədər araşdırmalar aparılmışdır, lakin hələ də həllini gözləyən problemlər çoxdur.

## ƏDƏBİYYAT

1.Alməmmədov X., Əliyev E. və b. (2017). *Azərbaycanın Qərb rayonlarında arxeoloji abidələrin elektron qeydiyyatı və xəritələşməsi.* Bakı, Elmin İnkişaf Fondu, 352 s.

*2.Azərbaycan toponimlərinin ensiklopedik lüğəti* (2007), 2 cilddə, II cild, Bakı, Şərq-Qərb, 304 s.

3.Bayramov İ. (2002). *Qərbi Azərbaycanın türk mənşəli toponimləri.* Bakı, Elm, 346 s.

4.Çingizoğlu Ə, Baxşəliyev F. (2007). *Qarabağın el və obaları.* Bakı, Şuşa nəşriyyatı, 224 s.

5.Əhmədova E. (2017). *Azərbaycan dilinin etnonimlər lüğəti.* Bakı, Elm və təhsil, 104 s.

6.İsrafilov R., Məşədiyev Q. və b. (1987). *Azərbaycan dilinin onomastikası (oçerklər).* Bakı, Elm, 188 s.

7.*"Kitabi-Dədə Qorqud" dilinin izahlı lüğəti* (1999). Bakı, Elm, 203 s.

8.Qarabağlı A. (2008). *Qarabağ, onun qədim tayfaları və toponimləri.* Bakı, Mütəcim, 480 s.

9.Qurbanov A. (2019). *Azərbaycan onomalogiyasının əsasları.* 2 cilddə, II cild. Bakı, Nurlan, 432 s.

10.Məmmədov Q., Xəlilov M. (2003). *Ekoloqların məlumat kitabı.* Bakı, Elm, 516 s.

11.Məmmədov N. (2007). *Toponimika.* Bakı, Bakı universiteti nəşriyyatı, 408 s.

12.Məşədiyev Q. (2007). *Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili.* Bakı, Nurlan nəşriyyatı, 231 s.

13.Tanrıverdi Ə. (2012). *Türk mənşəli Azərbaycan şəxs adlarının tarixi-linqvistik tədqiqi*. Bakı, 214 s.

**Ayshen ISMAYILLI**

**MICROTOPONYMS FROM ETHNONYMS IN THE TERRITORY OF AGDAM DISTRICT**

**SUMMARY**

The origin of place names occurs for historical and political reasons. Our village names, which are thousands of years old, have changed either very rapidly or at first glance as a result of certain processes at different times. Microtoponyms existing in our language are formed with the participation of different word groups. Ethnotoponyms are microtoponyms formed on the basis of names of tribes, peoples, clans. Microtoponyms formed from ethnonyms play an important role in revealing the names of peoples, tribes, clans, groups that took part in the history of the formation of our people and in determining when this process took place. The microtoponyms of the Karabakh region (Aghdam region) began to be studied in more detail after the liberation of our lands from occupation. The microtoponyms of the area also help to reveal interesting facts about the development path, profession, art and occupation of our people from ancient times to modern times. It is possible to study many important historical and ethno-political processes by following the names of tribes. However, little has been done on the etymology of microtoponyms derived from ethnonyms.

**Key words:** *microtoponym, ethnotoponym, tribe, generation, people*

**Айшан ИСМАИЛЛЫ**

**МИКРОТОПОНИМЫ, ОБРАЗОВАННЫЕ ИЗ ЭТНОНИМОВ НА ТЕРРИТОРИИ АГДАМСКОГО РАЙОНА**

**РЕЗЮМЕ**

Появление географических названий связано с историческими и политическими причинами. Названия наших поселений, которым тысячи лет, менялись в результате определенных процессов в разное время, либо очень быстро, либо на первый взгляд незаметно. Существующие в нашем языке микротопонимы образуются при участии различных групп слов. Этнотопонимы – это микротопонимы, образованные на основе названий племен, народов, кланов, родов. Микротопонимы, образованные из этнонимов, играют важную роль в выявлении названий народов, кланов, родов, племен, групп, принимавших участие в истории становления азербайджанского народа, и в определении того, когда происходил этот процесс. Микротопонимы Карабахского региона (Агдамского района) стали более подробно изучаться после освобождения наших земель от оккупации. Микротопонимы местности также помогают выявить интересные факты о пути развития, профессии, искусстве и занятиях азербайджанцев с древнейших времен до современности. По названиям племен можно изучать многие важные исторические и этнополитические процессы. Однако мало сделано по этимологии микротопонимов, производных от этнонимов.

**Ключевые слова:** *микротопоним, этнотопоним, племя, род, народ*